Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Kollegiyasının 2014-cü il 13 yanvar tarixli 01 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin ləğvi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin ləğvi üçün müraciətin və sənədlərin qəbul edilməsi

**1.2. Elektron xidmətin məzmunu:** bu xidmət ipoteka saxlayanın məktubu əsasında ipoteka predmetinə tutmanın yönəldilməsi haqqında bildirişin ləğvi üçün müraciətlərin qəbul edilməsi, elektron xidmət istifadəçisinə müraciətin qəbulu, işin icra tarixi barədə bildirişlərin verilməsi, işin icrasından imtina edildiyi hallarda bu barədə elektron xidmət istifadəçisinin məlumatlandırılması ilə bağlı qaydaları müəyyən edir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

1.3.1. "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı maddəsi;

*1.3.2. Azərbaycan Respublikası Prezidentinin 4 may 2015-ci il tarixli 516 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi haqqında Əsasnamə"nin 3.0.85-ci yarımbəndi;*[35]

1.3.3. "Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;[36]

1.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nın 24.10-cu bəndi.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin (bundan sonra – Xidmət) ərazi idarələri

**1.5. Elektron xidmətin digər icraçıları:** yoxdur

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Qismən avtomatlaşdırılmışdır

**1.7. Elektron xidmətin icra müddəti:** 1 (bir) iş günü müddətinə

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin ləğvi barədə arayışın ərizəçiyə təqdim edilməsi

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** interaktiv
2.2. Elektron xidmət üzrə ödəniş: **ödənişsiz**

**2.3. Elektron xidmətin istifadəçiləri:** fiziki və hüquqi şəxslər

**2.4. Elektron xidmətin təqdim olunma yeri: www.e-gov.az**, www.e-emdk.gov.az

**2.5. Elektron xidmət barədə məlumatlandırma:** www.e-emdk.gov.az, www.emdkdedrx.gov.az, Qaynar xətt: 193, 148, tel: (+994 12) 510 85 31, e-mail: info@dedrx.gov.az.

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

2.6.1. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır və onların skan edilmiş surəti elektron formada təqdim olunur:

**2.6.1.1. Fiziki şəxslər üçün:**

- İpoteka saxlayanın ərizəsi(reqlamentə əlavə olunur və ərizədə ərizəni təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinə dair məlumatlar (seriya, nömrə, şəxsiyyət vəsiqəsini verən orqanın adı və verilmə tarixi, ünvan) öz əksini tapmalıdır.)
- ipoteka saxlayanın adından ərizənin verilməsi halında bu barədə səlahiyyəti təsdiq edən etibarnamə

**2.6.1.2. Hüquqi şəxslər üçün:**

- İpoteka saxlayanın ərizəsi (reqlamentə əlavə olunur və ərizədə ərizəni təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinə dair məlumatlar (seriya, nömrə, şəxsiyyət vəsiqəsini verən orqanın adı və verilmə tarixi, ünvan) öz əksini tapmalıdır.)
- Hüquqi şəxsin nümayəndəsinin səlahiyyətini təsdiq edən etibarnamə

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

### 3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu:

3.1.1. sorğunun formalaşdırılması: İpoteka predmetinə tutmanın yönəldilməsi haqqında bildirişin ləğvi üçün sorğu elektron xidmətin təqdim edildiyi internet ünvanından götürülmüş ərizə formasının nümunəyə uyğun olaraq doldurularaq istifadəçi tərəfindən imza (elektron imza) ilə (dövlət və bələdiyyə orqanı, hüquqi şəxs olduqda imza və möhürlə) təsdiq edilməsindən sonra Xidmətin ərazi idarəsinə göndərilməsi nəticəsində formalaşır.

3.1.2. sorğunun qəbulu. **www.e-emdk.gov.az** internet səhifəsində qeydiyyatdan keçdiyi gün qeydə alınır və Xidmətin müvafiq ərazi idarəsi tərəfindən qəbul edilərək istifadəçiyə bunun təsdiqetmə bildirişi göndərilməlidir. Sorğunun (ərizənin) sonrakı icrası ilə bağlı istifadəçiyə bildiriş göndərilir.

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

3.2.1. İpoteka predmetinə tutmanın yönəldilməsi haqqında bildirişin ləğvi üçün 2.6-cı bənddə tələb olunan sənədlərin təqdim edilməməsi və ya təqdim edilən sənədlərdə aşkar olunan çatışmazlığın 3.2.3-cü yarımbənddə müəyyən edilmiş müddət ərzində aradan qaldırılmaması halında elektron xidmətin göstərilməsindən imtina edilir.

3.2.2. Elektron xidmətin göstərilməsindən imtina edildikdə, əsaslandırılmış imtina barədə və ya elektron xidmətin göstərilməsi barədə istifadəçiyə 1(bir) iş günü müddətində bildiriş göndərilir.

3.2.3. İstifadəçi tərəfindən təqdim edilən sənədlərdə imtina üçün əsas olmayan və aradan qaldırılması mümkün olan çatışmazlıq aşkar edildikdə bu barədə istifadəçiyə 1 (bir) iş günündən gec olmayaraq yazılı məlumat verilir. Onlar 1 (bir) iş günü müddətində aradan qaldırıldıqdan və bu barədə Xidmətin müvafiq ərazi idarəsinə məlumat verildikdən sonra, habelə imtina üçün əsas olmadığı halda sorğuya baxılaraq istifadəçiyə elektron xidmət göstərilir.

**3.3. Sorğunun icrası:**

**3.3.1.** İstifadəçi tərəfindən təqdim edilən sorğu qəbul edildikdən sonra Xidmətin müvafiq ərazi idarəsi tərəfindən qəbul edilir, xüsusi kitabda qeydə alınır və Xidmətin müvafiq ərazi idarəsinin şöbəsinə icra edilməsi üçün göndərilir;

**3.3.2.** Şöbədə sorğuya və ona əlavə edilmiş sənədlərə baxılır, İpoteka predmetinə tutmanın yönəldilməsi haqqında bildirişin ləğvi barədə arayış istifadəçiyə təqdim edilməsi üçün Xidmətin müvafiq ərazi idarəsinə verilir;

**3.3.3.** Xidmətin müvafiq ərazi idarəsi tərəfindən arayışın skan edilmiş surəti dərhal istifadəçinin elektron ünvanına, kağız üzərində əsli isə poçt vasitəsilə göndərilir və ya birbaşa təqdim edilir.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

3.4.1. nəzarət forması: Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Xidmətin rəhbəri və Xidmətin müvafiq ərazi idarəsinin rəhbəri həyata keçirirlər;

3.4.2 nəzarət qaydası: Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "*Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında* kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada. [37]

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

3.5.1. İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə qanunvericiliyə uyğun olaraq inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.

3.5.2. şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır;

3.5.3. şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində nəzərdə tutulmuş qaydada baxılmalıdır.

3.5.4. Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

Əlavə

**Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin_____________ Ərazi İdarəsinə**

| Ərizə | |
|---|---|
| Ərizənin verilməsi tarixi: | İcra müddəti |

| Ərizəçi haqqında məlumatlar |
|---|
| Soyadı, adı, atasının adı/ hüquqi şəxsin adı : |
| Yaşadığı ünvan/ hüquqi şəxsin ünvanı: |
| Şəxsiyyət vəsiqəsinə dair məlumatlar (seriya, nömrə, şəxsiyyət vəsiqəsini verən orqanın adı və verilmə tarixi, ünvan): |
| Etibarnamə: |
| Elektron poçt ünvanı |
| Əlaqə telefonları: |

| Ərizənin məqsədi |
|---|
| İpoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin ləğvi |

| Əmlak haqqında məlumatlar |
|---|
| Əmlak bölməsi: |
| Reyestr nömrəsi: |
| Qeydiyyat nömrəsi və tarixi: |
| Ünvanı: |

Ərizəni göndərən:

Ərizənin göndərilmə tarixi:

Təsdiqetmə bildirişi

ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri

Xidmətinin ______________ Ərazi İdarəsi

Ərizəçinin adı:

Ərizənin nömrəsi:

Müraciət tarixi:

Hazır olma tarixi:

Sənədlər götürüləcək otağın nömrəsi:

İş vaxtı: 9:00 -18:00 Fasilə 13:00 - 14:00